**Yeni mədəni xidmət**

# “Mən oxudum, sən də oxu”

**Cəmiyyətin inkişafında ən mühüm yeri təhsil, maarifləndirmə tutur. Buna görə də ölkəmizdə mədəni yüksəlişə xüsusi önəm verilir, insanların mütaliəyə marağını artırmaq üçün yollar axtarılır. Yeni layihələrdən biri də “Açıq kitabxana”dır.**






Yolunuz Rəşid Behbudov küçəsinə düşsə, mütləq Milli Kitabxananın bağçasında yerləşən “Açıq kitabxana”ya da baş çəkin. Siz də diqqətini kitabdan ayırmayan fərqli yaşlarda oxucuların, sakitcə dərslərini hazırlayan tələbə və şagirdlərin əhatəsində, açıq havada kitab oxuyub mənəvi istirahət edin. Dörd tərəfi kitab dolu rəflərlə əhatə olunmuş bağçada təklif olunan bütün kitabları heç bir qeydiyyatdan keçmədən alıb oxumaq mümkündür.

...Şəhərin səs-küyünün, sanki, eşidilmədiyi bu məkana nəzər yetirməyə yeni başlamışdım ki, kitabxananın əməkdaşı Ayşən Abdullayeva yaxınlaşaraq “Kömək lazımdırmı?”, – deyə soruşdu. Sonra kitabxana barədə məlumat verməyə başladı. Qeyd etdi ki, 2016-cı ildən fəaliyyətə başlayan bu açıq qiraət guşəsi hər gün sakinlərin xidmətindədir. Kitabxanaçıların iş saatı 18:00-da bitsə də, sonrakı saatlarda oxucular mühafizəçilərə müraciət edərək istədikləri kitablara baxa bilərlər.

Kitabxanada “Uşaq guşəsi”, “Mən oxudum, sən də oxu”, “Dövri mətbuat”, “Milli musiqi” və “Elektron Kitab Köşkü” guşələri yaradılaraq oxucuların istifadəsinə verilib. Azyaşlılar üçün nəzərdə tutulmuş guşədə yerli və xarici müəlliflərin nağılları, müxtəlif hekayələr və s. uşaq kitabları təqdim olunur. “Dövri mətbuat” guşəsində gündəlik və həftəlik qəzet və jurnalların yeni nömrələri təqdim olunur. Satış üçün nəzərdə tutulmuş kitablar isə “Elektron kitab köşkü”nə yerləşdirilib. Oxucular günün istənilən saatında əldə etmək istədikləri kitabların altındakı kodu yazıb, ödəniş edərək ala bilərlər.

Bütün bunların içində mənim ən çox diqqətimi çəkən “Mən oxudum, sən də oxu” guşəsi oldu. Əsasən, oxucuların bağışladığı kitablardan yaradılan bu guşə, mütaliə sevənlərə oxuduqları kitabı başqa biri ilə dəyişmək imkanı da verir.

Ayşən Abdullayeva vurğuladı ki, kitabların dəyişdirilməsində əsas şərt yazıldığı əlifba və dilin eyni olmasıdır. “Nadir hallarda, bəzi oxucular az səhifəli kitabları həcimcə dəfələrlə böyüyünə dəyişmək istəyirlər. Belə olduqda onların istəyi yerinə yetirilməyə bilər. Digər hallarda kitablar dəyişdirilir”.

Söhbət zamanı bir oxucu kitab dəyişmək üçün müraciət etdi. Orxan Məmmədov idi, Aqata Kristinin “Vadi” kitabını dəyişmək istəyirdi. “Açıq kitabxana” ideyası haqqında fikirlərini soruşduqda isə burada əlavə xərc çəkmədən yeni kitablar oxuya bildiyini dedi, layihənin təşkilatçılarına minnətdarlığını bildirdi.

Digər oxucu Sevinc Əliyeva isə fikrini qısaca ifadə etdi:

– Bura bəzən kitab oxumağa, bəzən də dərs hazırlamağa gəlirəm. Şəhərdə belə məkanların sayı çox olsa, daha yaxşı olar.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının (AMK) nəzdində yaradılan “Açıq Kitabxana”da oxucular üçün hər bir şərait yaradılıb, təmənnasız xidmət göstərilir. Kitabxanada AMK-nın elektron kataloqundan, elektron kitabxanasından və digər elektron mənbələrdən oxucuların istifadəsi üçün kompüter avadanlığı və “Wi-Fi” şəbəkəsi quraşdırılıb.

Qənaətimiz budur ki, belə xidmət guşələrini artırmaqla oxucularla kitablar arasında məsafəni qısaltmaq mümkündür. Kitablar isə mədəni yüksəliş pilləleridir.

***Rüfət MƏHƏRRƏMOV***

Xalq qəzeti.- 2023.- 19 iyul.- S.14.